# Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının 2024-cü ilin ilk yarımillik hesabatı

+994 51 230 39 35

info@kobska.az

www.kobska.az

KİÇİK VƏ ORTA BİZNES SUBYEKTLƏRİ VƏ KLUBLARININ ASSOSİASİYASI

# TARİXÇƏ

2020-ci il
**Assosiasiyanı təsis etdik**

2021-ci ildə
7 nəfərlik idarə heyəti
ilə birlikdə fəaliyyətə başladıq

20+ nəfərlik komanda
qurduq

7 fəaliyyət istiqaməti
yaratdıq

50+ sahibkarı
üzv etdik



## KOBSKA Məqsədi

Ölkədə yeni dövr sahibkarlıq mühitinin inkişafına xidmət etmək

## KOBSKA Vizyonu

Qlobal bazarlara uyğun sahibkarlıq mühiti formalaşdırmaqla sahibkarların həmin bazarlara inteqrasiyasına dəstək olmaq

# Yanvar

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

- **11** Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə KOBSKA arasında görüş keçirilib.
- **16** "Beynəlxalq Aqro Biznes Forum-2024" çərçivəsində 3-cü infosessiya keçirildi.
- **19** KOBSKA və Təhsilin İnkişafı Fondu (TİF) arasında görüş keçirilib.
- **24** Türk Hava Yolları ilə KOBSKA arasında görüş həyata keçirildi.
- **25** UHOM tikinti və daşınmaz əmlak kompleksinin təqdimat mərasimi həyata keçirilib

| Əhatə dairəsi | B2B, B2G görüşlər | İnfosessiya | Yeni üzv sayı |
|---|---|---|---|
| 2000 nəfər | 5 görüş | 1 ədəd | 4 üzv |

# Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə KOBSKA arasında görüş keçirilib.

11 yanvar 2024-cü il tarixində Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi ilə Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) arasında görüş keçirilib. Görüşdə agentliyə KOBSKA-nın gələcək layihələri ilə bağlı məlumat verilib və mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Sonda KOBSKA-nın 2023-cü il fəaliyyətində göstərdikləri dəstəyə görə Azərbaycan Respublikası Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyinə təşəkkürnamə təqdim olunub.



# “Beynəlxalq Aqro Biznes Forum-2024“ çərçivəsində 3-cü infosessiya keçirildi.

16 yanvar tarixində KOBSKA və AGRO TV Azərbaycanın birgə təşkilatçılığı ilə keçirilən İnfosessiyanın əsas məqsədi layihənin əsas hədəf kütləsi olan sahibkarlarla forumun əhəmiyyəti və perspektivləri barədə müzakirə aparmaq və məlumatlandırmaq idi.

Ümumilikdə görüş aqrar və kənd təsərrüfatı sferasının müxtəlif aspektlərinə aid (əkinçilik, suvarma sistemləri, bağçılıq, heyvandarlıq, bostançılıq) 25 şirkət nümayəndəsinin iştirakı ilə baş tutdu.

**İştirakçı**

**25+**







# KOBSKA və Təhsilin İnkişafı Fondu (TİF) arasında görüş keçirilib.

19 yanvar tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Təhsilin İnkişafı Fondu (TİF) arasında görüş keçirilib.

Görüşdə KOBSKA və TİF arasında gələcək əməkdaşlıq perspektivləri və görüləcək işlər barədə müzakirələr aparılıb. Görüşün sonunda KOBSKA-nın fəaliyyətində göstərdikləri dəstəyə görə Fondun İdarə Heyətinin sədri Elnur Nəsibova Assosiasiyanın idarə heyətinin sədri Nigar Ələsgərova tərəfindən təşəkkürnamə təqdim olunub.








# Türk Hava Yolları ilə KOBSKA arasında görüş keçirilib

24 yanvar 2024-cü il tarixində Türk Hava Yolları ilə Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) arasında görüş həyata keçirildi. Görüşdə KOBSKA-nın gələcək layihələri haqqında məlumat verildi və mümkün əməkdaşlıq əlaqələri müzakirə olundu.

Sonda, KOBSKA idarə heyətinin sədri Nigar Ələsgərova Türk Hava Yollarının ölkə direktoru Hamid Eldeleklioğluna Assosiasiyanın hədiyyəsini təqdim etdi.



# KOBSKA-nın təşkilatçılığı ilə UHOM tikinti və daşınmaz əmlak kompleksinin təqdimat mərasimi həyata keçirilib.

25 yanvar tarixində KOBSKA-nın təşkilatçılığı ilə UHOM tikinti və daşınmaz əmlak kompleksinin təqdimat mərasimi həyata keçirilib.

Tədbir zamanı həyata keçiriləcək layihənin görüntülərini əks etdirən video-çarx təqdim olunub. İlkin təqdimatdan sonra tikinti sektorunun qabaqcıl şirkətləri ilə mövcud layihənin gedişatı və görüləcək işlərlə bağlı müzakirələr aparılıb.

**İştirakçı sayı**

**300+**











# Fevral

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | | | |

**8** Startapçılarla görüş keçirildi.

**19** KOBSKA üzvləri arasında işgüzar məqsədli səhər yeməyi baş tutdu.

**20** **21** "Beynəlxalq Aqro Biznes Forum-2024" keçirilib.

**24** "Sahibkarlıqda Media" Forumu keçirilib.

**21-25** KOBSKA və Özbəkistan Ticarət Evinin birgə təşkilatçılığı ilə Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfər baş tutub.

**27** KOBSKA-nın "Təhsil Komitəsi" təsis edilib.

| Əhatə dairəsi | B2B, B2G görüşlər | FORUM | Yeni üzv sayı |
|---|---|---|---|
| 4000 nəfər | 3 görüş | 2 ədəd | 7 üzv |

# KOBSKA-nın təşkilatçılığı ilə startapçılarla görüş keçirildi.

8 fevral tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının təşkilatçılığı ilə startapçılarla görüş keçirildi.

Görüşdə startap ekosistemində startapçıların qarşılaşdıqları problemlər, assosiasiyanın bu problemlərin həlli yönündə imkanları və yaxında elan olunacaq yeni layihənin müzakirəsi aparıldı.

**Startapçı**

**25+**









# KOBSKA üzvləri arasında səhər yeməyi baş tutdu.

19 fevral tarixində KOBSKA üzvləri arasında səhər yeməyi baş tutdu.

Görüşdə 2024-cü ildə KOBSKA-nın təşkilatçılığı ilə həyata keçirilməsi planlaşdırılan layihələr haqqında ətraflı məlumat verildi. Həmçinin, görüş zamanı "İnsun Yaşam Mərkəzinin" mütəxəssisi Günay Nəsirova tərəfindən sağlam qidalanma ilə bağlı təqdimat baş tutdu.

İştirakçı üzv sayı

20









# 2-ci “Beynəlxalq Aqro Biznes Forum-2024” keçirilib.

20-21 fevral tarixlərində Kənd Təsərrüfatı Nazirliyinin, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) tərəfdaşlığı, KOB Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) və “Agro TV Azərbaycan”ın birgə təşkilatçılığı ilə “Beynəlxalq Aqro Biznes Forum-2024” keçirilib.

Forum çərçivəsində 30-a yaxın şirkətin məhsul və xidmətlərindən ibarət sərgi də təşkil olunub. Eyni zamanda 4 fərqli mövzuda panel müzakirələri keçirilib. Türkiyədən və digər ölkələrdən iştirak edən şirkətlərin təqdimatları da keçirilib

**Ziyarətçi sayı**

**2000+**

**İştirakçı şirkət**

**30**







# “Sahibkarlıqda Media“ Forumu keçirilib.

21 fevral 2024-cü il tarixində İqtisadiyyat Nazirliyinin Sahibkarlığın İnkişafı Fondu, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Azərbaycan Türkiyə Özbəkistan İş Adamları Birliyinin tərəfdaşlığı ilə Adalia Agency - nin təşkil etdiyi “Sahibkarlıqda Media” Forumu keçirilib.



Forum çərçivəsində “Sahibkarlığın inkişafında medianın rolu” adlı paneldə KOBSKA sədri Nigar Ələsgərova spiker qismində çıxış edib. Həmçinin peşəkar fəaliyyətində uğurlu xanımlarla yanaşı KOBSKA sədrinə də “Təşəkkürnamə” təqdim edilib.







# Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfər baş tutub.

21-25 fevral tarixlərində Kiçik və Orta Biznes Subyektlərinin və Klublarının Assosiasiyasının (KOBSKA) və Özbəkistan Ticarət Evinin birgə təşkilatçılığı ilə Özbəkistanın paytaxtı Daşkənd şəhərinə işgüzar səfər baş tutub.

Baş tutan işgüzar görüşün əsas məqsədi iki ölkə sahibkarları arasındakı əməkdaşlıq imkanlarının genişləndirilməsi və ölkəmizdə fəaliyyət göstərən istehsalçı şirkətlərin Özbəkistan bazarında fəaliyyətinin təmin edilməsi yönündə addımların atılmasıdır.

**İştirakçı şirkət**

**20**







# "Təhsil Komitəsi" təsis edilib.

Təhsil sahəsində fəaliyyət göstərən KOB-larla daha təkmil formada əməkdaşlıq etmək və bu sahədə genişmiqyaslı layihələri həyata keçirmək məqsədilə KOBSKA-nın "Təhsil Komitəsi" təsis edilib.

KOBSKA İdarə Heyəti sədrinin müvafiq qərarı ilə Təhsil Komitəsinin sədri vəzifəsinə Aysel Gülməm-mədova təyin olunub.



# Mart

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | | 1 | 2 | 3 |
| 4 | 5 | 6 | 7 | 8 | 9 | 10 |
| 11 | 12 | 13 | 14 | 15 | 16 | 17 |
| 18 | 19 | 20 | 21 | 22 | 23 | 24 |
| 25 | 26 | 27 | 28 | 29 | 30 | 31 |

**1** "Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması" mövzusunda konfrans keçirilib.

**2** **3** "Amanat Festival - Halal Market" keçirildi.

**4** KOBSKA-nın "Gömrük təmsilçiliyi və Logistika Komitəsi"

**7** KOBSKA-nın "İnşaat Materialları və Tikinti Komitəsi" təsis edilib.

**13** "Türk Dövlətləri İqtisadi Forumu 2024" layihəsi çərçivəsində mətbuat konfransı keçirilib

**28** KOBSKA Təhsil Komitəsinin təşkilatçılığı ilə "Təhsildə İnnovasiya Dövrü" adlı görüş baş tutub.

**29** KOBSKA və Təhsilin İnkişafı Fondu (TİF) arasında işgüzar görüş keçirilib.

| Əhatə dairəsi | B2B, B2G görüşlər | Tədbirlər | Komitə | Yeni üzv sayı |
|---|---|---|---|---|
| 3000 nəfər | 3 görüş | 3 ədəd | 2 | 3 üzv |

# “Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması” mövzusunda konfrans keçirilib.

1 mart 2024-cü il tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə “Yaşıl Dünya Naminə Həmrəylik İli” çərçivəsində “Ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolunun artırılması” mövzusunda konfrans keçirilib.

Baş tutan konfransda ekoloji tarazlığın və insan hüquqlarının təminatı sahəsində vətəndaş cəmiyyətinin rolu müzakirə edilib.

**Ziyarətçi sayı**

**500+**











# "Amanat Festival - Halal Market" keçirildi.

2-3 mart tarixlərində "Baku Marriott Hotel Boulevard "-də halal satış-sərgi yarmarkası "Amanat Festival - Halal Market" keçirildi.

Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının tərəfdaşlığı ilə baş tutan festivalın əsas məqsədi mikro və kiçik sahibkarlıq subyektlərinin satış imkanlarının artırılması və KOB-lar arasında əməkdaşlığın genişləndirilməsi, yerli məhsulların tanıdılmasıdır.

**Ziyarətçi sayı**

**500+**









# "Gömrük təmsilçiliyi və Logistika Komitəsi" təsis edilib.

İdxal və ixrac sahəsində fəaliyyət göstərən KOB-larla daha təkmil formada əməkdaşlıq etmək və bu sahədə genişmiqyaslı layihələr həyata keçirmək məqsədilə KOBSKA-nın "Gömrük təmsilçiliyi və Logistika Komitəsi" təsis edilib.




# "İnşaat Materialları və Tikinti Komitəsi" təsis edilib.

İnşaat materiallarının idxalı, istehsalı və tikinti sahəsində fəaliyyət göstərən KOB-larla daha təkmil formada əməkdaşlıq etmək və bu sahədə genişmiqyaslı layihələr həyata keçirmək məqsədilə KOBSKA-nın "İnşaat Materialları və Tikinti Komitəsi" təsis edilib.



# "Türk Dövlətləri İqtisadi Forumu 2024" layihəsi çərçivəsində mətbuat konfransı keçirilib

Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) və Azərbaycan Françayzinq Assosiasiyasının birgə təşkilatçılığı ilə "Türk Dövlətləri İqtisadi Forumu 2024" layihəsi çərçivəsində keçirilən mətbuat konfransı keçirilib

Türkdilli ölkələr arasında ilk dəfə keçiriləcək tədbir, bu ölkələr arasında mövcud bazar və investisiya imkanlarının öyrənilməsi, markaların beynəlxalq mühitə inteqrasiyasının təşkili, şirkətlərarası kommersiya münasibətlərinin inkişaf etdirilməsi, xarici investor və şirkətlərin ölkəyə cəlb olunmasına dəstək, türkdilli ölkələr arasında münasibətlərin gücləndirilməsi məqsədini daşıyır.

**Media qurum nümayəndəsi**

**20+**







# "Təhsildə İnnovasiya Dövrü" adlı görüş baş tutub.

28 mart tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) Təhsil Komitəsinin təşkilatçılığı ilə "Təhsildə İnnovasiya Dövrü" adlı görüş baş tutub. Görüşdə təhsil sahəsində fəaliyyət göstərən sahibkarlarla Təhsil Komitəsinin fəaliyyəti müzakirə olunub, o cümlədən 24-25 may tarixlərində baş tutacaq Baku EduExpo layihəsi haqqında ətraflı məlumat verilib.

KOBSKA ofisində keçirilən görüşdə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin nümayəndələri, KOBSKA-nın İdarə Heyətinin Sədri Nigar Ələsgərova , Təhsil Komitəsinin Sədri Aysel Gülməmmədova və 30-dan çox təhsil sektorunda fəaliyyət göstərən şirkətlər iştirak edirdi.

**Təhsil şirkəti**

**30+**









# Təhsilin İnkişafı Fondu (TİF) KOBSKA ofisini ziyarət edib

29 mart tarixində Təhsilin İnkişafı Fondu (TİF) Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının ofisini ziyarət edib. Görüşdə gələcəkdə icra olunacaq layihələrlə bağlı birgə əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün əsas müzakirə istiqamətlərindən biri də May ayında təşkil olunacaq Baku EduEXPO Beynəlxalq Təhsil Sərgi Yarmarkasının icra prosesi idi.





# Aprel

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

- **18** "İş dünyası 100 ilin zirvəsi 3" biznes forum-sərgisi keçirilib.
- **25** KOBSKA-nın "Standartlaşma və Sertifikasiya" komitəsi təsis edilib.
- **25** 25 aprel Sahikarlar Günündən etibarən artıq Biznes TV internet televiziyası fəaliyyətə başlayır
- **26** KOBSKA-nın "Vergi və Mühasibatlıq" komitəsi təsis edilib.

- **1** KOBSKA "İftar Süfrəsi" təşkil edib.
- **2** MÜSİAD  və KOBSKA arasında görüş keçirilib.
- **3** Türkiyə Hava Yolları və KOBSKA arasında işgüzar görüş keçirilib
- **5** Türk Dünyası Tarım Birliyi və KOBSKA arasında işgüzar görüş keçirilib
- **9** KOBSKA və Oba Marketlər Şəbəkəsi arasında görüş keçirilib.
- **16** Dövlət Gömrük Komitəsi nümayəndələri və KOBSKA üzvləri arasında B2G görüş keçirildi.
- **16** KOBSKA Təhsil Komitəsinin təşkilatçılığı ilə "Təhsildə İnnovasiya Dövrü" adlı növbəti görüş baş tutub.
- **17** KOBSKA və Ege Bölgesi Sanayi Odası (EBSO) arasında əməkdaşlıq momerandumu imzalanıb.
- **18** KOBSKA və İzmir Ticarət Odası arasında əməkdaşlıq momerandumu imzalanıb.
- **18** Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının Türkiyə təmsilçiliyi təsis olunub.
- **22** Dünya Bankının nümayəndələri və KOBSKA rəhbərliyi arasında görüş baş tutub.
- **23** Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer arasında işgüzar görüş baş tutub.

| Əhatə dairəsi | B2B, B2G görüşlər | Tədbirlər | Komitə | Yeni üzv sayı |
|---|---|---|---|---|
| 8000 nəfər | 10 görüş | 3 | 2 | 2 üzv |

# KOBSKA “İftar Süfrəsi” təşkil edib.

Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) təşkilatçılığı ilə 1 aprel tarixində "Four Seasons Baku"da “İftar süfrəsi” təşkil edilib. Tədbirdə millət vəkilləri, dövlət qurumlarının nümayəndələri, media nümayəndələri və 300-dən çox sahibkar iştirak edib.

Tədbir din xadiminin Quran ayələri səsləndirməsi və Azan oxuması ilə başlayıb. Rəsmi qurumun nümayəndələrinin çıxışları ilə davam edən iftar süfrəsi KOBSKA tərəfindən 2024-cü ildə planlaşdırılan layihələrin qısa təqdimatı ilə yekunlaşıb. Həmçinin tədbir müddətində "İftar Süfrəsi"nin təşkilinə dəstəyi olan “Tahmazov Group”, Azərbaycan Korporativ İş Adamları Birliyi (AKİAB), İnsan Yaşam Mərkəzi (İNSUN) və “Macis Group”-un nümayəndələrinə "Təşəkkürnamə"lər təqdim olunub.








**Ziyarətçi sayı**

**300+**







# MÜSİAD və KOBSKA arasında görüş keçirilib.

2 aprel tarixində MÜSİAD İdarə Heyətinin üzvü, Avrasiya və Sakit Okean Region Koordinatoru Mustafa Özgür Yücel və MÜSİAD İsveçrə İdarə Heyətinin sədri Şeref Yıldızın rəhbərliyi altında Azərbaycanda işgüzar səfərdə olan iş adamları heyəti, MÜSİAD Azərbaycan İdarə Heyəti üzvləri və Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) arasında görüş keçirilib.

Görüşün əsas məqsədi gələcəkdə keçirilməsi nəzərdə tutulan layihələrin və birgə əməkdaşlıq imkanlarının müzakirəsi idi.

Görüş müddətində 2-3 may tarixində keçiriləcək "Türk Dövlətləri İqtisadi Forumu" layihəsində birgə əməkdaşlıq məsələləri də müzakirə olunub.

Görüşün sonunda Özgür Yücel Türiyədəki zəlzələ zamanı yardımlarından dolayı KOBSKA-nın İdarə Heyətinin sədri Nigar Ələsgərovaya plaket təqdim edib.







# Türkiyə Hava Yollarının Azərbaycan ofisi rəhbərliyi KOBSKA ofisini ziyarət edib.

3 aprel tarixində Türkiyə Hava Yolları Azərbaycan ofisi rəhbərliyi KOBSKA ofisini ziyarət etdi. Görüş müddətində gələcəkdə keçiriləcək layihələr və birgə əməkdaşlıq imkanları müzakirə olundu.

Görüşün sonunda KOBSKA İdarə Heyətinin sədri Nigar Ələsgərovaya plaket təqdim olunub.









# Türk Dünyası Tarım Birliyi və KOBSKA arasında işgüzar görüş keçirilib

5 aprel tarixində Aqro TV Azərbaycan qurucusu, Türk Dünyası Tarım Birliyi başkanı Doğan Başaran və AGRO TV Azərbaycan rəhbərliyi ilə Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının İdarə Heyətinin sədri Nigar Ələsgərova arasında işgüzar görüş keçirildi.

Görüşün əsas məqsədi gələcəkdə keçiriləcək layihələrin və birgə əməkdaşlıq imkanlarının müzakirəsi idi.








## KOBSKA və Oba Marketlər Şəbəkəsi arasında görüş keçirilib.

9 aprel tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Oba Marketlər Şəbəkəsi arasında görüş keçirilib.

Görüşdə KOBSKA-nın idarə heyətinin sədri Nigar Ələsgərova tərəfindən Oba Marketlər Şəbəkəsinin idarə heyətinin sədri Natəvan İbrahimovaya Assosiasiyanın gələcək layihələri haqqında ətraflı məlumat verildi və potensial əməkdaşlıq imkanlarının müzakirəsi baş tutdu.




## Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyi və KOBSKA arasında işgüzar görüş baş tutub.

Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) idarə heyətinin sədri Nigar Ələsgərova ilə Şimali Kipr Türk Respublikasının Azərbaycandakı nümayəndəliyinin rəhbəri Ufuk Turganer arasında işgüzar görüş baş tutub.

Görüşdə KOBSKA-nın qarşıdakı layihələri haqqında ətraflı məlumat verilib və mümkün əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşün sonunda Assosiasiyanın sədri xanım Ufuk Turganerə KOBSKA-nın simvolik hədiyyəsini təqdim edib.



# Dövlət Gömrük Komitəsi nümayəndələri və KOBSKA üzvləri arasında B2G görüş keçirildi.

16 aprel tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) təşkilatçılığı ilə Dövlət Gömrük Komitəsi nümayəndələri və KOBSKA üzvləri arasında B2G görüş keçirildi.

Üç saata yaxın davam edən görüşdə gömrük qanunvericiliyində yer alan yeni dəyişikliklər, sahibkarlar üçün gömrük güzəştləri, onların gömrük məsələləri ilə bağlı suallarının cavablandırılması və s. digər gömrük və logistika məsələlərinin müzakirəsi baş tutub. Görüş zamanı sahibkarların sual və təklifləri dinlənilib və müvafiq qeydlər alınıb.

**İştirakçı şirkət**

**25+**









# "Təhsildə İnnovasiya Dövrü" adlı növbəti görüş baş tutub.

16 aprel tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının(KOBSKA) Təhsil Komitəsinin təşkilatçılığı ilə "Təhsildə İnnovasiya Dövrü" adlı növbəti görüş baş tutub. Görüşdə təhsil sahəsində fəaliyyət göstərən sahibkarlarla Təhsil Komitəsinin fəaliyyəti müzakirə olunub, o cümlədən 24-25 may tarixlərində baş tutacaq Baku EduExpo layihəsi haqqında ətraflı məlumat verilib.

KOBSKA ofisində keçirilən görüşdə İnnovasiya və Rəqəmsal İnkişaf Agentliyinin (IDDA) Baş Layihə Meneceri Gülnar Mirhüseynova, IDDA Kiçik və Orta Biznesin Rəqəmsallaşdırılması üzrə proqram rəhbəri Elturan Əhmədbəyli, KOBSKA-nın İdarə Heyətinin Sədri Nigar Ələsgərova , Təhsil Komitəsinin Sədri Aysel Gülməmmədova və 30-dan çox təhsil sektorunda fəaliyyət göstərən şirkətlər iştirak edirdi.

**Təhsil şirkəti**

**30+**






# KOBSKA və Ege Bölgesi Sanayi Odası arasında əməkdaşlıq memorandumu imzalanıb.

18 aprel tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Ege Bölgesi Sanayi Odası (EBSO) arasında əməkdaşlıq momerandumu imzalanıb.

KOBSKA və Ege Bölgesi Sanayi Odası arasında imzalanan memorandumun əsas məqsədi iki ölkə arasında ticari və iş münasibətlərinin gücləndirilməsi və bu istiqamətdə ortaq layihələrin icra olunmasıdır. Memorandumu KOBSKA sədri Nigar Ələsgərova və Ege Bölgesi Sanayi Odasının idarə heyətinin sədri Ender Yorgancılar imzalayıb.

Görüş zamanı hər iki qurumun rəhbərləri, birgə fəaliyyətin önəmi haqqında öz fikirlərini bildirərək, gələcəkdə sahibkarlıq münasibətlərinin gücləndirilməsi ilə bağlı strateji layihələrin birliktə icrası üçün razılığa gəliblər.

Qeyd edək ki, bundan öncə də 21 noyabr 2023-cü il tarixində KOBSKA ilə Ankara Ticarət Odası arasında iki ölkə arasında ticari və iş əlaqələrinin gücləndirilməsi məqsədilə əməkdaşlıq memorandumu imzalanmışdır.






# İş dünyası 100 ilin zirvəsi - İzmir.

HEYDƏR ƏLİYEV 100

18-19 aprel tarixlərində Türkiyənin İzmir şəhərində Azərbaycanlı və Türkiyəli iş adamları arasında “İş dünyası 100 ilin zirvəsi 3” biznes forum-sərgisi keçirilib.Ulu öndər Heydər Əliyevin 100 illik yubileyinə və Türkiyə Respublikasının 100 illiyinə həsr olunan layihə Kiçik və Orta Biznesin İnkişafı Agentliyi və İzmir Ticarət Odası-nın rəsmi tərəfdaşlığı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) təşkilatçılığı ilə həyata keçirilib.

Tədbirin rəsmi açılış mərasimində İzmir Ticarət Odası idarə heyətinin üzvü Mahmut Erkoç, Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin İdarə Heyətinin sədri Orxan Məmmədov, İzmir Ticarət Ofisi Təmsilçisinin baş müşaviri Cavid Abdullayev və KOBSKA-nın İdarə Heyətinin sədri Nigar Ələsgərova çıxış ediblər.

Qeyd edək ki, "İş Dünyası 100 ilin Zirvəsi" biznes forum-sərgisi bundan öncə 13-14 iyul 2023-cü il tarixlərində İstanbul, 21-22 noyabr 2023-cü il tarixlərində isə Ankara şəhərlərində həyata keçirilib.

**Ziyarətçi sayı**

**300+**

**İştirakçı şirkət**

**20**







# Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) Türkiyə təmsilçiliyi təsis olunub.

Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) Türkiyə təmsilçiliyi təsis olunub. Təmsilçiliyin əsas məqsədi iki ölkə sahibkarları arasında əlaqələrin gücləndirilməsi, birgə layihələrin həyata keçirilməsi və sahibkarların hər iki ölkə bazarına çıxışına xüsusi dəstəyin göstərilməsidir.

Qeyd edək ki, 18 aprel tarixində Türkiyənin İzmir şəhərində KOBSKA-nın təşkilatçılığı ilə həyata keçirilən "İş Dünyası 100 ilin zirvəsi - 3" biznes forum-sərgisi zamanı Afaq Hüseynova KOBSKA sədri Nigar Ələsgərova tərəfindən "KOBSKA Türkiyə Təmsilçiliyi"-nin rəhbəri vəzifəsinə təyin olunub.




# KOBSKA və İzmir Ticarət Odası arasında memorandum imzalandı.

"İş Dünyası 100 ilin zirvəsi - 3" biznes forum-sərgisi zamanı Kiçik və Orta Biznes Subyektlərinin və Klublarının Assosiasiyası (KOBSKA) və İzmir Ticarət Odası arasında ticarət və biznes münasibətlərinin inkişaf etdirilməsi istiqamətində memorandum imzalandı.
Memorandumu KOBSKA sədri Nigar Ələsgərova və İzmir Ticaret Odası idarə heyətinin üzvü Mahmut Erkoç imzalayıb.
Qeyd edək ki, bundan öncə 21 noyabr 2023-cü il tarixində KOBSKA və Ankara Ticarət Odası arasında da ticarət və biznes münasibətlərinin inkişaf etdirilməsi istiqamətində memorandum imzalanmışdır.



## 22 aprel tarixində Dünya Bankının nümayəndələri və Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) rəhbərliyi arasında görüş baş tutub.












Azərbaycan Sahibkarlar Konfederasiyası (ASK), Azərbaycan - Türkiyə İş Adamları Birliyi (ATİB), MÜSİAD Azərbaycan, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA), Kahramanmaraş Dərnəklər Federasiyasının (MaraşFed) təşkilatçılığı ilə Kahramanmaraşın Türkoğlu rayonunda yerləşən "Qardaş Köməyi" müvəqqəti konteyner məhəlləsində zəlzələdən zərər görən soydaşlarımızla, millət vəkilləri, dövlət rəsmiləri və qeyri hökumət təşkilatlarının nümayəndələrinin də iştirak etdiyi "Birlik və Qardaşlıq iftarı" tədbiri keçirilib.

Qeyd edək ki, ötən ilin 6 Fevral tarixində Türkiyədə baş verən, əsrin fəlakəti adlandırılan zəlzələdən sonra Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) və Azərbaycan Sahibkarlar Konfederasiyasının (ASK) dəstəyi, Azərbaycanda fəaliyyət göstərən qeyri-hökumət təşkilatlarının, assosiasiyaların, iş insanlarının təşkilatçılığı ilə "Qardaş Köməyi Platforması" təsis edilmişdir. KOBSKA-nın idarə heyətinin sədri Nigar Ələsgərova da "Qardaş Köməyi" platformasının təsis olunduğu gündən platformanın fəal üzvü olaraq fəaliyyət göstərmişdir.

KİÇİK VƏ ORTA BİZNES
SUBYEKTLƏRİ VƏ KLUBLARININ
ASSOSİASİYASI

biznes tv

## 25 aprel Sahibkarlar Günündən etibarən Biznes TV internet televiziyası fəaliyyətə başladı

# "Standartlaşma və Sertifikasiya" komitəsi təsis edilib

KOB-ların idarəetmə proseslərinin standartlaşması, sistemləşməsi, yerli və beynəlxalq sertifikasiyadan keçməsinin təmin edilməsi ilə bağlı daha təkmil formada əməkdaşlıq etmək və bu sahədə geniş-miqyaslı layihələr həyata keçirmək məqsədilə KOBSKA-nın "Standartlaşma və Sertifikasiya" komitəsi təsis edilib.




# "Vergi və Mühasibatlıq" komitəsi təsis edilib.

KOB-ların vergi və mühasibatlıq işlərinin daha təkmil formaya salınması və bu sahədə geniş-miqyaslı layihələr həyata keçirmək məqsədilə KOBSKA-nın "Vergi və Mühasibatlıq" komitəsi təsis edilib.



# May

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| | | | 1 | 2 | 3 | 4 |
| 5 | 6 | 7 | 8 | 9 | 10 | 11 |
| 12 | 13 | 14 | 15 | 16 | 17 | 18 |
| 19 | 20 | 21 | 22 | 23 | 24 | 25 |
| 26 | 27 | 28 | 29 | | | |

- **2** Türk Dövlətləri İqtisadi Forumu keçirilib
- **2** OSTİM Organize Sanayi Bölgesinin Müdirliyindən Esma Akyüz və KOBSKA sədri Nigar Ələsgərova arasında görüş keçirilib
- **2** KOBSKA “Gömrük təmsilçiliyi və Logistika Komitəsi” və Türkiyənin Logistika Xidmət Təhcizatçıları Assosiasiyası arasında memorandum imzalanıb.
- **4** İstanbul Millət vəkili Doğan Bekin KOBSKA ofisini ziyarət edib.
- **4** Azərbaycan Kənd Qadınları Assosiasiyası və KOBSKA arasında işgüzar görüş keçirilib.
- **10** "Türk Dövlətləri İqtisadi Forumu"-nun ərsəyə gəlməsində dəstəyi olan sponsor və dəstəkçilərlə görüş keçirildi.
- **14** KOBSKA və sahibkarlar arasında ənənəvi işgüzar görüşlər keçirilib.
- **22** “CareerFest BEU 2024” adlı karyera festivalı təşkil olunub
- **23** “Güclü cəmiyyətin zərif simaları” layihəsi çərçivəsində növbəti görüş baş tutub
- **24** **25** "Baku Edu Expo-2024" Beynəlxalq Təhsil sərgi-satış yarmarkası keçirilib
- **29** KOBSKA sədri və əməkdaşları ACCFIN GROUP şirkətini ofisini ziyarət edib.

| Əhatə dairəsi | B2B, B2G görüşlər | FORUM | Yeni üzv sayı |
|---|---|---|---|
| 14000 nəfər | 3 görüş | 2 ədəd | 7 üzv |

# Türk Dövlətləri İqtisadi Forumu keçirilib

Türk Dövlətləri Təşkilatı rəsmi tərəfdaşlığı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası və Azərbaycan Françayzinq Assosiasiyasının birgə təşkilatçılığı ilə ilk dəfə ölkədə "Türk Dövlətləri İqtisadi Forumu" keçirildi.

Forum Kapital Bank, Caspian Kapital Group, Unimetal və Gemza Holdingin maliyyə dəstəyi, CEO Platform, Azərbaycan Korporativ İş Adamları Birliyi , Türk Dünyası Tarım Birliyi və Yazılım Sanayicileri Dərnəyinin OSTİM Organize Sanayi Bölgesinin təşkilati dəstəyi ilə keçirildi. Kiçik və Orta Biznesin İnkişafı Agentliyi də forumun rəsmi tərəfdaşlarından biri idi.










**Spiker sayı**
28

**Ziyarətçi sayı**
1000+

**Stend iştirakçısı**
20 şirkət

**Panel müzakirəsi**
4

# Türk Dövlətləri İqtisadi Forumundan görüntülər





















# OSTİM Organize Sanayi Bölgesinin  Müdirliyindən Esma Akyüz və KOBSKA sədri Nigar Ələsgərova arasında görüş keçirilib

2 may tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) təşkilatçılığı ilə təşkil olunan Türk Dövlətləri İqtisadi Forum çərçivəsində ölkəmizdə səfərdə olan OSTİM Organize Sanayi Bölgesinin  Müdirliyindən Esma Akyüz forumda iştirak edib.

Tədbir sonrası Esma Akyüz 3 may tarixində KOBSKA ofisini ziyarət edib. Görüşdə KOBSKA-nın Sədri Nigar Ələsgərovaya OSTİM-in simvolik plaketini hədiyyə edib.



## KOBSKA-nın "Gömrük təmsilçiliyi və Logistika Komitəsi" və Türkiyənin Logistika Xidmət Təhcizatçıları Assosiasiyası arasında memorandum imzalanıb.

2 may tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) "Gömrük təmsilçiliyi və Logistika Komitəsi" və Türkiyənin Logistika Xidmət Təhcizatçıları Assosiasiyası arasında memorandum imzalanıb.




## Azərbaycan Kənd Qadınları Assosiasiyası və KOBSKA arasında işgüzar görüş keçirilib.

10 may tarixində Azərbaycan Kənd Qadınları Assosiasiyası və KOBSKA arasında işgüzar görüş keçirilib.

Görüşdə KOBSKA ilə mümkün əməkdaşlıq imkanları müzakirə olunub.



# İstanbul Millət vəkili Doğan Bekin Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) ofisini ziyarət edib.

4 may tarixində İstanbul Millət vəkili Doğan Bekin Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) ofisini ziyarət edib. Ziyarət müddətində KOBSKA İdarə Heyətinin sədri Nigar Ələsgərova ilə baş tutan görüşdə gələcəkdə keçiriləcək layihələrlə bağlı əməkdaşlıq imkanları müzakirə olunub.

Görüşdən sonra Millət vəkili Doğan Bekin və KOBSKA komandası Yunus Əmrə İnstitutunda keçirilən "Turan yolu-Zəngəzurum" adlı əsərin təqdimat mərasimini ziyarət edərək nümayiş olunan dekorativ tətbiqi sənət nümunələri ilə tanış olublar.



# "Türk Dövlətləri İqtisadi Forumu"-nun ərsəyə gəlməsində dəstəyi olan sponsor və dəstəkçilərlə görüş keçirildi.

10 may tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının ofisində "Türk Dövlətləri İqtisadi Forumu"-nun ərsəyə gəlməsində dəstəyi olan sponsor və dəstəkçilərlə görüş keçirildi.

Görüşdə "Türk Dövlətləri İqtisadi Forumu"-nun nəticələri üzərindən müzakirələr aparıldı. Həmçinin, görüşdə sponsor və dəstəkçilər forum haqqında öz rəylərini bildirərək, növbəti dəfə keçirilməsi planlanan TCEF və digər layihələrdə əməkdaşlığa müsbət yanaşdıqlarını qeyd etdilər.

Görüşün sonunda tədbirin təşkilində dəstəyi olan şirkətlərə "Təşəkkürnamə"-lər təqdim edildi.

Qeyd edək ki, "Türk Dövlətləri İqtisadi Forumu" Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası və Azərbaycan Françayzinq Assosiasiyasının birgə təşkilaçılığı ilə həyata keçirilib.






# KOBSKA və sahibkarlar arasında ənənəvi işgüzar görüşlər keçirilib.

















# “CareerFest BEU 2024” karyera sərgisi keçirilib

22 may 2024 tarixində Bakı Mühəndislik Universitetində (BMU) “CareerFest BEU 2024” adlı karyera festivalı təşkil olunub. Ümumilikdə Azərbaycanın bütün ali təhsil ocaqlarının tələbə və məzunları üçün açıq olan festivalda 104 nüfuzlu şirkət tərəfindən 1000-dən artıq aktiv vakansiya və təcrübə proqramları təqdim edilib. Həmçinin festival çərçivəsində interaktiv fəaliyyətlər, oyunlar, müxtəlif sərgi stendləri, əyləncəli təcrübələr təşkil olunub.

Tədbirin açılış mərasimində Dövlət Məşğulluq Agentliyinin İdarə Heyətinin sədri Mustafa Abbasbəyli, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının sədri Nigar Ələsgərova, Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədri Elnur Nəsibov, Azərbaycan Korporativ İş Adamları Birliyi idarə heyətinin sədri Şirin Şərifov çıxış edib.

Qeyd edək ki, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası “CareerFest BEU 2024” festivalının tərəfdaşlarından biri idi.

**Ziyarətçi sayı**

**800+**

**İştirakçı şirkət**

**104**







# “Güclü cəmiyyətin zərif simaları” layihəsi çərçivəsində növbəti görüş Masallı rayonunda təşkil olunub.

23 may tarixində Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsi və “Regional İnkişaf” İctimai Birliyinin təşkilatçılığı ilə “Güclü cəmiyyətin zərif simaları” layihəsi çərçivəsində növbəti görüş Masallı rayonunda təşkil olunub. Görüşdə Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının sədri Nigar Ələsgərova TEDx formatında çıxış edib.

Qeyd edək ki, layihənin məqsədi regionalarda yaşayan qadınlar, yeniyetmə və gənc qızların şəxsi və liderlik bacarıqlarının inkişafına dəstək vermək, ictimai fəallığını artırmaqdır.

| Ziyarətçi |
| --- |
| 300 |






# Baku EduEXPO ‘24 Beynıəlxalq Təhsil sərgi-satış yarmarkası keçirilib

"Yaşıl dünya naminə öyrənək" şüarı ilə “Baku EduEXPO” 2024 Beynəlxalq Təhsil sərgi-satış yarmarkası keçirilib. Ümimilikdə 8000-ə yaxın ziyarətçinin qatıldığı sərgidə təhsil sektorunda fəaliyyət göstərən 30-dan çox şirkət və qurumlar iştirakçı qismində çıxış etdi.

Məlumat üçün bildirək ki, “Baku EduExpo” silsilə xarakteri daşıyır və iki ildən bir keçirilməsi planlaşdırılır.

Xatırladaq ki, Təhsilin İnkişafı Fondu və Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin tədbirin rəsmi tərəfdaşı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Baku Design Academy təşkilatçısı, Nescafe isə dəstəkçi şirkətdir.

**Ziyarətçi sayı**

**8000+**

**İştirakçı şirkət**

**30**











# Baku EduEXPO ‘24 Beynıəlxalq Təhsil sərgi-satış yarmarkasından görüntülər




















# KOBSKA sədri və əməkdaşları ACCFIN GROUP şirkətini ofisini ziyarət edib.

29 may tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) sədri və əməkdaşları ACCFIN GROUP şirkətini ziyarət edib.

Şirkətin yeni ofis təsis etməsi və fəaliyyətinin 5 illiyi münasibətilə təşkil edilən ofis ziyarətində gələcəkdə icra olunacaq layihələr haqqında müzakirələr edilib.

KOBSKA İdarə Heyətinin sədri Nigar Ələsgərova görüşün sonunda ACCFIN GROUP şirkətinin təsisçisi Elşad Ağahəsənova KOBSKA-nın simvolik hədiyyəsini təqdim edib.

Qeyd edək ki, ACCFIN GROUP KOBSKA-nın Xüsusi üzvüdür. Həmçinin Elşad Ağahəsənov KOBSKA-nın "Maliyyə və Mühasibatlıq" Komitəsinin sədridir.







# İyun

| | | | | | | |
|---|---|---|---|---|---|---|
| 1 | 2 | 3 | 4 | 5 | 6 | 7 |
| 8 | 9 | 10 | 11 | 12 | 13 | 14 |
| 15 | 16 | 17 | 18 | 19 | 20 | 21 |
| 22 | 23 | 24 | 25 | 26 | 27 | 28 |
| 29 | 30 | 31 | | | | |

- **3** KOBSKA-nın təşkilatçılığı ilə GemZA Holdinqin istehsalat, xidmət və logistika mərkəzinin rəsmi açılış mərasimi baş tutub
- **6** Baku EduEXPO Beynəlxalq Təhsil sərgi-satış yarmarkası iştirak edən şirkətlər ilə Təhsilin İnkişafı Fondu və 4SİM Azərbaycan arasında görüş keçirilib.
- **11** KOBSKA-nın PR və Media komitəsi təsis edilib.
- **12** MİRSİS şirkətinin FİNPERİON proqramının təqdimatı keçirilib.
- **13** Universitet-sənaye tərəfdaşlığı çərçivəsində dövlət və özəl qurumlar arasında görüş keçirilib
- **20** KOBSKA və Bakı Slavyan Universiteti (BSU) arasında işgüzar görüş keçirilib.
- **22** KOBSKA tərəfdaşlığı ilə Bakıda növbəti "Türk Dünyası" Təhsil Festivalı keçirilib.
- **28** KOBSKA və Bakı Biznes Universiteti arasında işgüzar görüş keçirilib.

| Əhatə dairəsi | B2B, B2G görüşlər | Tədbir | Yeni üzv sayı |
|---|---|---|---|
| 2000 nəfər | 5 görüş | 1 ədəd | 4 üzv |

# KOBSKA-nın təşkilatçılığı ilə GemZA Holdinqin istehsalat, xidmət və logistika mərkəzinin rəsmi açılış mərasimi baş tutub

3 iyun tarixində GemZA Holdinqin istehsalat, xidmət və logistika mərkəzinin rəsmi açılış mərasimi baş tutub. Tədbirin rəsmi açılış mərasimində Kiçik və Orta Biznesin İnkişafı Agentliyinin (KOBİA) sədri cənab Orxan Məmmədov, Finlandiya Respublikasının ölkəmizdəki fövqəladə və səlahiyyətli səfiri xanım Kirsti Narinen və GemZA Holdinqin rəhbəri cənab Zamin Əliyev çıxış edib.

GemZA Holdinq Xəzər regionu, Türkiyə və Orta şərqdə xüsusi əhəmiyyətə malik neft və qeyri neft sektorunda istifadə olunan avadanlıqların tədarükü təmiri və istehsalı ilə məşğul olur. Holdinq həmçinin, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının "Xüsusi üzvü"-dür.

Qeyd edək ki, açılış mərasimi KOBSKA-nın təşkilatçılığı ilə həyata keçirilib.









# Beynəlxalq Təhsil sərgi-satış yarmarkası iştirak edən şirkətlər ilə Təhsilin İnkişafı Fondu və 4SİM Azərbaycan arasında görüş keçirilib.

6 iyun tarixində Baku EduEXPO Beynəlxalq Təhsil sərgi-satış yarmarkası iştirak edən şirkətlər ilə Təhsilin İnkişafı Fondu və 4SİM Azərbaycan arasında görüş keçirilib.

Görüşdə Təhsilin İnkişafı Fondunun İdarə Heyətinin sədr müavini Xanım Daşdəmirova, 4SİM Azərbaycanın Rəqəmsal İqtisadiyyat şöbəsinin rəhbəri Xəyalə Fətullayeva, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) sədri Nigar Ələsgərova, KOBSKA Təhsil Komitəsinin sədri Aysel Gülməmmədova və 20-dən çox şirkət iştirak edib.

Görüş müddətində Baku EduEXPO Beynəlxalq Təhsil sərgi-satış yarmarkasının yekun hesabatı üzərindən rəy və təkliflər dinlənilib və gələcəkdə keçirilməsi planlaşdırılan layihələrdə birgə əməkdaşlıq imkanları müzakirə olunub. Həmçinin B2G formatında keçirilən görüşdə Təhsilinin İnkişafı Fondu, 4SİM Azərbaycan və şirkətlərin əməkdaşlığına dair müzakirələr aparılıb.






# PR və Media komitəsi təsis edilib

KOB-ların Media və PR işlərinin daha təkmil formaya salınması, eləcə də bu sahədə genişmiqyaslı layihələr həyata keçirmək məqsədilə KOBSKA-nın PR və Media komitəsi təsis edilib.

KOBSKA İdarə heyəti sədrinin müvafiq qərarı ilə PR və Media Komitəsinin sədri vəzifəsinə Dilşad Əhədova təyin olunub.



# MİRSİS şirkətinin iştirakı ilə şirkətlər arasında B2B görüş keçirilib

12 iyunda KOBSKA üzvləri və MİRSİS şirkəti arasında B2B görüş keçirilib. Görüşdə MİRSİS şirkətinin nümayəndələri yeni yaratdıqları proqram haqqında geniş məlumat verib. Belə ki, proqram süni intellektdən istifadə edərək büdcə hesablanmasında istifadəçiyə yardımçı olacaq.

Həmçinin maliyyə performansı, risklərin idarə edilməsi məsələlərində də dəstək göstərir. Daha sonra sahibkarlar arasında əməkdaşlığın inkişaf etdirilməsi məsələləri müzakirə olunub.










# Universitet-sənaye tərəfdaşlığı çərçivəsində dövlət və özəl qurumlar arasında görüş keçirilib

İyun ayının 13-də Təhsilin İnkişafı Fondunun təşəbbüsü ilə Universitet-sənaye tərəfdaşlığı çərçivəsində dövlət və özəl qurumlar ilə görüş keçirilib.

Keçirilən görüşdə Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının sədri Nigar Ələsgərova, həmçinin dövlət və özəl qurumların rəhbər şəxsləri iştirak ediblər.









# Bakı Slavyan Universiteti ilə işgüzar görüş keçirilib.

20 iyun tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Bakı Slavyan Universiteti (BSU) arasında işgüzar görüş keçirilib.

Görüşdə KOBSKA və Bakı Slavyan Universiteti (BSU) arasında gələcəkdə keçiriləcək layihələr və birgə əməkdaşlıq imkanları müzakirə edilib.

Görüşün sonunda KOBSKA-nın idarə heyətinin sədri Nigar Ələsgərova Bakı Slavyan Universitetinin rektoru siyasi elmlər üzrə fəlsəfə doktoru Anar Nağıyevə simvolik hədiyyə təqdim edib.



# Bakı Biznes Universiteti ilə işgüzar görüş keçirilib.

28 iyun tarixində Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyası (KOBSKA) və Bakı Biznes Universiteti (BBU) arasında işgüzar görüş keçirilib.

Görüşdə KOBSKA və Bakı Biznes Universiteti (BBU) arasında gələcəkdə keçiriləcək layihələr və birgə əməkdaşlıq imkanları müzakirə edilib.

Görüşün sonunda KOBSKA-nın idarə heyətinin sədri Nigar Ələsgərova Bakı Biznes Universitetinin rektoru iqtisad elmləri doktoru, professor, İbad Abbasova simvolik hədiyyə təqdim edib.



# Türk Dünyası Təhsil Festivalı keçirilib

CEO Fair şirkətinin təşkilatçılığı, Kiçik və Orta Biznes Subyektləri və Klublarının Assosiasiyasının (KOBSKA) tərəfdaşlığı ilə 22 iyun tarixində Bakıda növbəti "Türk Dünyası" Təhsil Festivalı keçirilib.
Açılış mərasimində çıxış edən rəsmi qonaqlar təhsilin inkişafı ilə bağlı maraqlı təkliflər irəli sürüblər.
Daha sonra KOBSKA-nın İdarə Heyətinin sədri Nigar Ələsgərova çıxış edərək festivalın Türk dövlətləri arasındakı təhsil münasibətlərinin inkişafındakı rolundan danışıb, tədbirin gedişatına uğurlar arzu edib.
Ümumilikdə 1200-dən çox ziyarətçinin qatıldığı sərgidə 40-a yaxın yerli və xarici təhsil mərkəzlərinin direktorları, Milli Məclisin deputatları, Türkiyə universitetlərinin müəllimləri iştirak ediblər.

**Ziyarətçi sayı**

**1000+**

**İştirakçı şirkət**

**40**












# Fəxri üzv

Kapital Bank

# Xüsusi üzv

avrora

GemZA Group

QARABAĞ STEEL

Mobil GROUP

ill Med

EUROCLIMA

unico universal construction

ACCFIN GROUP Accounting and Finance group

TOKEN

WM

İlğım əmin ol!

ALBATROS

İNŞAAT MS MMC

logix software & resource planning

# Üzv

AZ İNŞAAT HOLDİNQ

ULUTURAN

SILK PLASTER®

Azerbaijan Global IT Technology

FreshAir mechanical engineering

Progres

STÜHMER

BKS

ARTER

SMTS INDUSTRIAL AND CIVIL CONSTRUCTION SERVICES

LED & CONNECTIONS

BRAIN OF CONSTRUCTION www.bofc.az

MURADLI-M MMC

edumax

ARBEA İNŞAAT

GREENSTREAM INTERNATIONAL

NOVA PACK

ENEMAY Financial Consulting and Career Center

TOSCAN İNŞAAT

overmetal

AZERLEGAL GROUP

AzDad

NEO Plast

AirFresh

QİNYƏT OĞULLARI

Provitaz alternative energy

REVİSA.AZ

KİÇİK VƏ ORTA BİZNES SUBYEKTLƏRİ VƏ KLUBLARININ ASSOSİASİYASI

# DİQQƏTİNİZ ÜÇÜN
# TƏŞƏKKÜR EDİRİK!

+994 51 230 39 35

info@kobska.az

www.kobska.az